TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_________ E.M.Ağayev
"28" oktyabr 2013-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

*Bu dərmanı qəbul etmədən öncə məlumat vərəqini diqqətlə oxuyun!*

*Bu vərəqi itirməyin, bəlkə təkrar oxumanız lazım oldu.*

*Daha ətraflı məlumatı həkiminizdən və ya əczacıdan ala bilərsiniz. İstəyirsinizsə onlara məsləhət üçün müraciət edin.*

**İMMUNOKİND** 100 mq tabletlər

IMMUNOKIND

**Tərkibi**
*Təsiredici maddələr*: 1 tabletin tərkibində 20 mq Calcium carbonicum Hahnemanni trit. D6, 20 mq Calcium fluoratum trit. D6, 20mq Calcium phosphoricum trit. D6; 20mq Sulfur jodatum trit. D6 (aktiv maddələrin tərkibində laktoza var) vardır.
*Köməkçi maddələr* : mikrokristallik sellüloza, talk, maqnezium-stearat.

**Farmakoterapevtik qrupu**
Homeopatik dərmandır.

**İstifadəsinə göstərişlər**
Orqanizmin immunetitini güçləndirmək üçün, həmçinin az yaşlı və südəmər uşaqlarda tez tez təkrarlanan tənəffüs yollarının infeksion-iltihabi xəstəliklərinin qarşısının alınması üçün istifadə olunur.

**Əks göstərişlər**
Preparatın komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərmanlarla qarşılıqlı təsirii müşahidə edilməmişdir. Əgər uşağınız bundan əlavə eyni zamanda başqa dərman qəbul edirsə və ya son zamanlarda qəbul edibsə, həkiminizə və ya əczacınıza bildirin. Bu, reseptsiz buraxılan dərmanlara da aiddir.

**Xüsusi xəbərdarlıqlar və ehtiyat tədbirləri**
İMMUNOKİNDi yemeklə eyni zamanda qəbul etmək məsləhət görülmür. Tabletler yeməkdən yarım saat əvvəl və ya yarım saat sonra qəbul edilməlidir.

Əgər həkim uşağınızın bəzi şəkərlə qarşı allergiyası olduğunu söyləyirsə, bu dərmanla müalicəni başlamazdan öncə onunla məsləhətləşin.

Əgər uşağınızın qalxanvarı vəzi ilə bağlı problemi varsa, bu dərmanla müalicəni başlamazdan öncə həkimlə məsləhətləşin.

İMMUNOKİNDin uşağınıza kömək etməzsə və ya uşaqda gözlənilməz simptomlar meydana çıxarsa, məsləhət üçün həkimə müraciət edin.

Əvvəlcədən həkiminizlə məsləhətləşmədən uzun müddətli müalicə üçün qəbul etməyin.

Bu dərmanın tərkibində laktoza var (süd şəkəri).

**İstifadə qaydası və dozası**
İMMUNOKİNDi həmişə həkiminizin və ya əczacının dediyi şəkildə qəbul edin. Əgər hər hansı bir sualınız varsa, əmin deyilsinizsə, həkiminizlə və ya əczacıyla məsləhətləşin. Adətən aşağıda göstərildiyi kimi istifadə olunur.

6 yaşa qədər uşaqlar: gündə 3 dəfə 1 tablet
Tabletler yeməkdən yarım saat əvvəl və ya yarım saat sonra qəbul edilməlidir, ağızda yavaş yavaş əriyir.
Lazım gəldikdə tableti az miqdar suda həll edə bilərsiniz.

Vaxtında qəbul edilməmiş tabletin əvəzinə uşağınıza ikiqat doza verməyin.

Artıq dozada istifadə edildiyi zaman mənfi təsir riski yoxdur.
İMMUNOKİNDin qəbulunun dayandırılmasında mənfi təsir riski yoxdur.

**Əlavə təsirləri**
İMMUNOKİNDin müəyyən əlavə təsirləri müşahidə edilməyib.
Lakin, digər dərmanlar kimi İMMUNOKİND də bəzi əlavə təsirlərə səbəb ola bilər. İMMUNOKİNDi verdikdən sonra dərmanın uşağınıza əlavə təsirlər göstərməsindən şüphələnsəniz, həkiminizə və ya əczacıya bildirin.

*Qeydlər.* Homeopatik dərmanlarının qəbulu zamanı xəstəliyin mövcud simptomları təkrarlana bilər (ilk simptomlar), bu halda dərmanı qəbul etməyi dayandırın ve həkimlə məsləhətləşin.

**Buraxılış forması**
150 tablet, şüşə flakonda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
Bu dərmanın saxlanılması üçün heç bir xüsusi şərait ltələb olunmur. Uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
5 il.
Karton qutunun və ya flakonun üstündə yazılan yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçısı**
Doyç Homopati – Yunion
DHU – Arzneimittel GmbH & Ko. KG,
Ottoştrasse 24, 76227Karlsrue, Almaniya,
Tel. + 49(721)4093 236